**UOT 026.06:330.322.214**
**KBT Ч738.3+Н,0**

# Memarlıq və inşaat üzrə mütəxəssislərin kitabxana-informasiya təminatı sistemi

**G.N.Hacıyeva**
gunel.haciyeva.1987@mail.ru

**Xülasə:** *Məqalədə memarların elmi tədqiqatları, monoqrafiyaları, oçerkləri, biblioqrafik göstəriciləri memarlıq sahəsinin informasiya resursları kimi təhlil edilmişdir. Məqalənin əsas məqsədi bu tədqiqatların dəyərini göstərmək və onlar haqqında informasiya verməkdir.*

**Açar sözlər:** *memarlıq fəaliyyəti, memar, kitabxana, biblioqrafik resurslar, sənəd-informasiya təminatı*

**Ключевые слова:** *архитектурной деятельности, архитектор, библиотека, библиографических ресурсов, документально информационная обеспечения*

**Key words:** *architectural activity, architect, library, bibliographic resources, documents- information software*

Azarbaycan xalqının dərin va müxtəlif tarixi köklərə malik olan mədəniyyəti ümumdünya mədəniyyətinin mürəkkəb və ayrılmaz tərkib hissəsidir. Bu köklərin öyrənilməsi və sistemləşdirilməsində azarbaycanlı alimlərin əvəzsiz xidmətləri olmuşdur. Onların əsərləri Azərbaycan memarlıq irsinin elmi cəhətdən əsassız, ayrı-ayrı xalqların mədəniyyətlərinin özünəməxsusluğunu inkar edən, zaman və məkan xaricində olan, eləcə də mahiyyətinə görə qeyri-müəyyən xarakterə malik, elmə zidd konsepsiyalardan ayrılmasına səbəb olmuşdur.

Kitabxanaşünaslıqda informasiya cəmiyyəti, onun əsasını təşkil edən biliklər sistemi, bu sahədə innovativ fəaliyyət, ayrı-ayrı elm sahələrinin kitabxanainformasiya təminatı sisteminin öyrənilməsi istiqamətində son dövrlərdə Azərbaycanda müxtəlif tədqiqatlar aparılmış və elmi məruzələr hazırlanmışdır. Müxtəlif elmlərin, o cümlədən memarlığın kitabxana-informasiya təminatı sisteminin öyrənilməsi prosesi Azərbaycan kitabxanaşünaslıq elmi ictimaiyyəti üçün yeni bir cığırdır [6, s.112].

Alimlər tərəfindən ən qədim zamanlardan indiki dövrümüzə qədər Azərbaycan memarlığının yaranmasının və inkişaf etməsinin çoxəsrli, mürəkkəb

və ibrətamiz prosesi, Yaxın va Orta Şərq memarlığının ümumi tarixindən ayrılmışdır. Memarlıq dekorunun istər Azərbaycan ərazisində, istərsə də onun hüdudlarından uzaqlarda işləyən memar va sənətkarlarının adları həmçinin alimlər tərəfindən toplanılmış və sistemləşdirilmişdir. Yaratdıqları əsərlərinin heç də az olmayan hissəsinin, dünya mədəniyyətinin şah əsərləri sırasında olduğu bu sənatkarlar Yaxın va Orta Şərqin bir çox ölkələrində yüksək şöhrətə malik olmuşlar. Müxtəlif şəraitlar səbəbindən - ixtiyari va qeyri-ixtiyari olaraq onlardan bir çoxları vətənlərindən kənarda işləmək məcburiyyətində qalmışlar. Bununla belə, ucaltdıqları tikililərin memarlığında əvvəllər öz vətənlərində topladıqları tacrübədən istifadə etmişlər ki, bu da Yaxın və Orta Şərqin müxtəlif vilayətlərinin abidələrinin memarlığında, orta əsr Azərbaycanının memarlığında səciyyəvi motivlər, tikinti və kompozisiya üsulları şəklində öz əksini tapmışdır.

Memarlıq üzrə kitabxana-informasiya təminatının formalaşması prosesləri ildən-ilə sürətlənir. Eyni zamanda bu sahədə tələb olunan informasiyanın həcmi artır və biblioqrafik informasiya təminatında daha yüksək operativlik tələb olunur. Memarlıq sahəsində kitabxana-informasiya təminatının əhəmiyyətini bu sahənin mütəxəssisləri də təsdiqləyir və buna xüsusi diqqət yetirirlər.

Memarlıq biblioqrafiyasının digər obyekti olan tələbatçıların tərkibi də başqa elm sahələrindən xeyli fərqlənir. Burada fərqli cəhət təkcə burada çalışan mütəxəssislərin peşə aidiyyəti deyil, həm də müəyyən elm sahələri üzrə çalışan tələbatçılar qrupunun tərkibindəki xüsusiyyətlərdir.

Memarlıq üzrə tələbatçı qrupları içərisində müxtəlif təhsil müəssisələrində oxuyan tələbələr xüsusi mövqeyə malikdir. Sahə üzrə təhsil alan tələbələrin kitabxana-informasiya təminatı biblioqrafik fəaliyyətin çox əhəmiyyətli istiqamətlərindən biridir. Cəmiyyətdə baş verən inkişaf prosesləri bu və ya digər sahənin inkişafına da öz təsirini göstərir. Bu da öz əksini informasiya tələbatçılarının sayının artması və ya azalmasında büruzə verir. İqtisadiyyatın, turizmin inkişafı və elmi-texniki tərəqqi insanların memarlığın ayrı-ayrı sahələrinə diqqətin artması və sənəd axınının intensivləşməsi ilə xarakterizə olunur. Bütün bu xüsusiyyətlər özünü həmin tələbatın ödənilməsinə yönəlmiş biblioqrafik informasiya təminatında tapır.

Aparılmış araşdırma memarlıq sahəsinin kitabxana-informasiya təminatında baş verən proseslər haqqında ümumi anlayış formalaşdırmağa imkan yaradır. Bütün bunlar sahə üzrə sənəd-informasiya sistemindəki nailiyyətlərini obyektiv qiymətləndirməyə və gələcək üçün onun inkişaf yollarını proqnozlaşdırmağa kömək edəcəkdir. Məqalədə  müasir memarlıq sahəsində baş verən hadisələrin şərhi ilə proseslərə obyektiv qiymət verməyə üstünlük verilmiş, keyfiyyət, kəmiyyət, struktur təhlilin, o cümlədən, müqayisəli və konkret-təhlilin metodlarından istifadə edilmişdir.

İnformasiya cəmiyyətinin inkişafı şəraitində ayrı-ayrı mütəxəssislərin

səmərəli fəaliyyəti onların informasiya təminatından çox asılıdır. Bu vəziyyət informasiyanın sürətlə artdığı və tez bir zamanda da öz aktuallığını itirdiyi müasir dövrümüzdə mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan memarlığı üzrə sənəd kütləsini funksional baxımdan aşağıdakı tiplərə ayırmaq olar:

a) Azərbaycan memarlığının tarixinə həsr olunmuş tədqiqatlar - bu tipli əsərlərin əsas məqsədi keçmiş memarlıq irsini dərindən tədqiq etmək və qiymətləndirmək, ayrı-ayrı dövrlərdə memarlığımızın mütərəqqi ənənələrinə əsaslanaraq onun gələcək inkişaf yollarını müəyyənləşdirməkdən ibarətdir. Belə əsərlər bir qayda olaraq memarlıq tarixinə bütövlükdə, ayrı-ayrı dövrlərə, memarlıq məktəblərinin inkişaf tarixinə həsr edilmişdir.

Azərbaycan memarlıq tarixini öyrənmək sahəsində ciddi elmi-tədqiqat işi sayılan belə əsərlər əhatə etdiyi məsələlərə, zəngin faktiki materiala və məzmun dolğunluğuna görə memarlığımızın sənəd kütləsində müstəsna əhəmiyyət kəsb edirlər.

Azərbaycan memarlıq tarixinə həsr olunmuş hər bir əsərin (monoqrafiyanın) əsas məqsədi və funksiyası xalqımızın memarlığını bir küll şəkilində inkişaf prosesində göstərməkdir.

b) Azərbaycanda memarlıq sənətinin yaradıcılıq problemlərinə həsr olunmuş elmi-tənqidi əsərlər - Azərbaycanda memarlığın nəzəri problemlərinə həsr olunmuş kitablar memarlığımızın sənəd kütləsində çoxluq təşkil edir. Bunlara əsasən müvafiq dövrün memarlığının inkişafına kömək göstərmək məqsədilə dərin elmi-tədqiqat xarakterli tənqidi əsərlər, müasir memarlığın əsas yaradıcılıq məsələlərini təhlil edən, ətraflı şəkildə işıqlandıran, memarlıq yaradıcılığında ictimai məzmun, forma, sənətkarlıq, üslub məsələləri və s. problemləri əks etdirən nəşrlər daxildir.

Azərbaycan memarlığının sənəd və informasiya məkanında memarlığın tarixi inkişaf mərhələlərində mühüm yaradıcılıq məsələləri ilə əlaqədar onlarca belə əsərlər meydana çıxmışdır: görkəmli memarlar və gənc elmi tədqiqatçılar tərəfindən yazılmış bu zəngin nəzəri irs Azərbaycan memarlığının inkişafında yaxından iştirak etmişdir.

c) Azərbaycan memarlığının ayrı-ayrı nümayəndələrinə həsr olunmuş monoqrafiyalar - bu tip materiallarda əsərin həsr olunduğu şəxsiyyətin memarlıq tarixindəki mövqeyi, rolu və sənətkarlıq xüsusiyyətlərindən asılı olaraq onun dövrü, həyat və yaradıcılığı, elmi irsi, yaradıcılığının inkişaf mərhələlərinin əsas istiqamətləri təhlil olunur, onun yaradıcılığının mütərəqqi ənənələrinə əsaslanan bu günkü memarlığın inkişafı üçün nəticələr çıxarılır.

Azərbaycan memarlığının ayrı-ayrı nümayəndələrinə həsr olunmuş şəxsi biblioqrafik göstəriciləri də memarlıq sahəsi üzrə mühüm kitabxana-informasiya resursu hesab etmək olar.

d) Məlumat xarakterli sənədlər - özündə bu və ya digər elm, bilik sahəsi və şəxslərə dair elmi, elmi-kütləvi, faktoqrafik və s. məlumatları əks etdirən sənədlər (ensiklopediyalar, lüğətlər, məlumat kitabları və s.) nəzərdə tutulur.

Bütün sahələrdə olduğu kimi memarlıq sferasında da elmi-praktik fəaliyyətin səmərəsi informasiya təminatından asılıdır. Memarlıq üzrə sənəd axınının həcminin artması, kitabxana-informasiya tələbatının intensivləşməsi bu sahə üzrə biblioqrafik fəaliyyətin, o cümlədən biblioqrafik təminatın yeni metod və texnologiyalarının yaradılmasını zəruri etmişdir.

Memarlıq üzrə biblioqrafik verilənlər bazasının yaradılması sahəsində respublikamızda ilk təcrübə Azərbaycan EA Əsaslı Elmi Kitabxanasına məxsus olmuşdur.

Elmin inkişafı onun kitabxana-informasiya təminatı sisteminin optimallığından asılıdır. Azərbaycanda memarlıq üzrə mütəxəssislərin kitabxana-informasiya təminatı sistemində ən böyük ixtisaslaşmış müəssisə Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasıdır. Azərbaycan Memarlıq və İnşaat Universitetinin Kitabxanası (bundan sonra – kitabxana) fəaliyyətini müasir tələblər səviyyəsində qurmuşdur. Kitabxananın əsas vəzifəsi ənənəvi və elektron kitabxana vasitəsi ilə ali təhsil müəssisəsinin oxucularının informasiya tələbatını operativ ödəmək və onlara dolğun informasiya xidməti göstərməkdir [2, s.1].

Kitabxana 2014-cü ildə tamamilə yenidən müasir formada qurularaq oxucularının istifadəsinə verilmişdir. Burada yeni oxu zalları, konfrans (virtual) zalı və müasir elektron xidmət şöbəsi yaradılmışdır.

Kitabxananın əsas fəaliyyət istiqaməti:

- kitablar, dövri və ardı davam edən nəşrlər, normativ-texniki və patent sənədləri, dissertasiyalar və avtoreferatlardan ibarət sənəd-informasiya resursları fondunu zənginləşdirmək, mühafizə etmək və onlardan istifadəni təmin etmək;
- kitabxananın sənəd-informasiya resursları fondunu özündə əks etdirən mükəmməl informasiya axtarış sistemi (ənənəvi və elektron kataloq), elektron kitabxana və biblioqrafik vəsaitlər sistemini tətbiq etməklə oxucuların hərtərəfli istifadəsinə verməkdən ibarətdir [2, s.1].

Kitabxananın oxu zalları internetə qoşulmuş və kitabxananın elektron kataloqu və digər elektron resurslardan istifadə prosesləri avtomatlaşdırılmışdır. Kitabxana ölkənin bir sıra iri kitabxanaları ilə kitab mübadiləsi həyata keçirir. Bunlardan Bakı Dövlət Universitetinin Elmi Kitabxanasını, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasını və M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasını göstərmək olar. Eyni zamanda, bir çox kitabxanalardan kitabxanalararası abonoment (KAA) vasitəsilə ilə az tapılan kitablar əldə edərək oxucuların sorğuları ödənilir. Hazırda kitabxananın sənəd-informasiya resursları fondunu 517155 nüsxə ədəbiyyat təşkil edir. Bunlar elmi-tədris ədəbiy-

yatı, dərslik, xarici, bədii, dövri mətbuat və digər nəşrlərdir.

Nəticə olaraq qeyd etmək lazımdır ki, müasir şəraitdə oxucuların mütaliə sorğularını tam və dolğun ödəmək, oxucu mütaliəsinə məqsədyönlü istiqamət vermək, yeni-yeni maraq sahələri yaratmaq üçün hər bir oxucunu ətraflı öyrənmək, onun mövcud xüsusiyyətlərini nəzərə almaqla iş aparmaq lazımdır.

**Ədəbiyyat**

1. AMEA Mərkəzi Elmi Kitabxanasının 2010 - 2015-ci illər üzrə hesabatları.
2. Azərbaycan Memarlıq və İnşaat Universitetinin kitabxanasının 2015-ci il hesabatı.
3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq. Bakı, 2001, 143s.
4. Əliyeva-Kəngərli A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar. Bakı: Elm, 2007, 230s.
5. Hüseynov E., Həsənov.Ə, Mikayılova M. Tarixi şəhərin memarlıq irsi. Bakı, 2006, 152s.
6. “Memarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu// “Azərbaycan” qəzeti, 1998, 16 may, s.2
7. Məmmədov F.Q. Orta əsrlər Azərbaycan memarlıq məktəblərinin əlaqələri. Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 196s.

**Библиотечное и информационное система обеспечения специалистов архитектуры и строительство**

Г.Н.Гаджиева

**РЕЗЮМЕ**

*В статье проанализированы научные исследование, монографии, очерки, библиографические указатели архитекторов как информационные ресурсы архитектурной сферы. Основная цель этой статьи заключается в том, чтобы показать ценность этих исследований и дать короткую информацию оних.*

**Library and information assurance system for professionals of architecture and construction**

G.N.Hajiyeva

**SUMMARY**

*The article analyzes the scientific research, monographs, essays, bibliographies of architects as the information resources of architectural spheres. The main purpose of this article is to Show the value of this research and give brief information about them.*